**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

---

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun Gənc alim və mütəxəssislərin**
**4-cü birgə "Mənim ilk qrantım"müsabiqəsinin**
**(EİF/GAM-4-BGM-GİN-2017-3(29)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımların Azərbaycan və Türkiyə mətbuatında əksi: faktlar və axtarışlar (1988-1994-cü illər)**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Paşayeva Aynurə Niyaz qızı**
Qrantın məbləği: **20 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/15/5-M-11**
Müqavilənin imzalanma tarixi: **10 aprel 2018-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2018-ci il – 01 may 2019-ci il**

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |

1. **1988-1994-cü illər: dövrün ictimai mənzərəsi və Azərbaycan mətbuatında jurnalist yanaşmaları və janr tipologiyası –** tədqiqat işi ilk öncə toplama üsulu ilə materiallar cəmlənib sistemləşdirilmişdir. 1988-1994-cü illər kimi mürəkkəb dövrdə mətbuat daha çox basqılara məruz qalmışdı. Tədqiqatda problemin həlli ilə əlaqədar nəzəri təhlil və elmi ümumiləşdirmələrə önəm verilmişdir, 1988-1994-cü illərin mətbuatı "Dövrün ictimai mənzərəsi və Azərbaycan mətbuatında jurnalist yanaşmaları", "Janr tipologiyası" yarımfəsilləri əsasında tarixi-tipoloji və müqayisəli analitik yanaşma metodu ilə araşdırmaya cəlb olunmuşdur.
2. **1988-ci ildə azərbaycanlıların İrəvandan deportasiyasının publisistikada əksi** – tədqiqatda elmi-siyasi və bədii publisistik materiallar əsasında elmi-tarixi və müqayisəli analitik yanaşma metodundan istifadə edilmişdir.
3. **20 Yanvar faciəsi və Azərbaycan mətbuatı** – tədqiqat işi ilk öncə toplama üsulu materiallar cəmlənib sistemləşdirilmişdir. İki hissədən ("20 Yanvar faciəsi Azərbaycan mətbuatında (1990-2000)" və "20 Yanvar faciəsi Azərbaycan mətbuatında (2001-2018)") ibarət olan tədqiqatda elmi araşdırmalar zamanı kompleks yanaşma üsulundan istifadə olunmuşdur. Azərbaycan jurnalistikasının milli və beynəlxalq təcrübə əsasında inkişafının mərhələlərini əsas meyar kimi götürülümüşdür. Tədqiqatda milli haqlarımıza obyektiv yanaşma hakimdir. Faciəyə tarixi baxımından yanaşmada müxtəlif maraqlı faktlar üzə çıxarılmışdır. Tədqiqatda tarixi və analitik yanaşma metodu parallel şəkildə aparılmışdır.

4. **20 Yanvar faciəsi bədii ədəbiyyatda (1990-2000)** – Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpası 1990-cı illər ədəbiyyatının, eləcə də onun aparıcı qolu olan

poeziyanın yeni keyfiyyətdə, fərqli statusda təzahür etməsinə güclü təsir göstərmiş, sovet dövründə hökm sürən ideoloji metod və prinsiplərdən qopmasına, özünü əvvəlkindən fərqli biçimdə, yeni ampluada ifadə etməsinə şərait yaratmışdır. Tədqiqat işinin strukturu “20 Yanvar faciəsinin poeziyada bədii inikası”, “Poeziyada qərənfil detalı”, “Milliözünüdərk məsələsi”, “Faciənin nəsrdə bədii əksi” yarımfəsillər əsasında qurulmuşdur. Tədqiqat işi tarixi-müqayisəli metod və müasirlik prinsipi əsasında yazılmışdır. Nəzəri baza kimi müasir milli və dünya ədəbiyyatşünaslığının elmi təcrübəsinə istinad edilmişdir. Klassik ədəbiyyatşünaslığın təcrübəsi də diqqətdən kənarda qalmamış, əksinə, onun ehtiva etdiyi ənənə və meyarlar, ideya və prinsiplər rəhbər tutulmuşdur.

5. **“Azərbaycan” jurnalında İrəvan mövzusu** – “Erməni quldur Andronik azərbaycanlı yazarların nəzərində”, “Tarixi-siyasi baxış”, “Deportasiyadan sonrakı mərhələdə ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərinə cavab” adlı yarımfəsillər əsasında yazılan tədqiqatda elmi-tarixi və müqayisəli analitik yanaşma metodundan istifadə edilmişdir.
6. **20 Yanvar faciəsi bədii ədəbiyyatda (2001-2010)–** tədqiqat işi ilk öncə toplama üsulu ilə materiallar cəmlənib sistemləşdirilmişdir. Tədqiqatda problemin həlli ilə əlaqədar nəzəri təhlil və elmi ümumiləşdirmələrə önəm verilmişdir, 2001-2010-cu illərin mətbuatında poeziya və nəsrdə elmi müqayisəli, analitik yanaşma metodu ilə araşdırmaya cəlb olunmuşdur.
7. **20 Yanvar faciəsi bədii ədəbiyyatda (2011-2018)** – tədqiqatda 2011-2018-ci illərdə çap olunmuş mətbuat nümunələri əsasında elmi müqayisəli analitik yanaşma metodundan istifadə edilmişdir.
8. **Bədii ədəbiyyatda Qarabağ mövzusunun inikası (1995-2000-ci illər mətbuatında)** – tədqiqat işi ilk öncə toplama üsulu materiallar cəmlənib sistemləşdirilmişdir. Qarabağ mövzusu poeziya və nəsr nümunələri əsasında tədqiqata cəlb olunmuş, konkret nümunələrlə filoloji təhlil olunmuşdur. Tədqiqatda müqayisəli və analitik elmi yanaşma metodu parallel şəkildə aparılmışdır. Qarabağ mövzusunun işıqlandırılması məsələsinə tədqiqatda çağdaşlıq, müasirlik nöqteyi-nəzərindən diqqət yetirməklə də müasirlik prinsipinə əməl edilir.
9. **Bədii ədəbiyyatda Qarabağ mövzusu (2001-2018-ci illər mətbuatında)** –Tədqiqat işi poeziya, nəsr və dramaturgiya nüumunələri əsasında tarixi-müqayisəli metod və müasirlik prinsipi əsasında araşdırılmışdır. Nəzəri baza kimi müasir milli və dünya ədəbiyyatşünaslığının elmi təcrübəsinə istinad edilmişdir. Klassik ədəbiyyatşünaslığın təcrübəsi də diqqətdən kənarda qalmamış, əksinə, onun ehtiva etdiyi ənənə və meyarlar, ideya və prinsiplər rəhbər tutulmuşdur.
10. **1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi** – tədqiqat işi üçün lazım olan materiallar Türkiyənin İstanbul Böyükşəhər Bələdiyyəsi Atatürk Kitablığından toplama üsulu ilə xronoloji ardıcılıqla seçilmiş, fotoaparatla qəzet və jurnallardan şəkilləri çəkilmiş, sonra materiallar sistemləşdirilmişdir. “1988-1990-cı illər siyasi hadisələrinin Türkiyə mətbuatında əksi”, “1990-cı il 20 Yanvar faciəsinin Türkiyə mətbuatında işıqlandırılması”, “Mətbuatda erməni yalanları” adlı yarımfəsillər əsasında yazılan tədqiqatda elmi-tarixi və müqayisəli-analitik yanaşma metodundan istifadə edilmişdir.
11. **Xocalı soyqırımı Türkiyə mətbuatında (1992-2000) –** tədqiqat işi üçün lazım olan materiallar Türkiyənin İstanbul Böyükşəhər Bələdiyyəsi Atatürk Kitablığından toplama üsulu ilə xronoloji ardıcılıqla seçilmiş, fotoaparatla qəzet və jurnallardan şəkilləri çəkilmiş, sonra materiallar sistemləşdirilmişdir. Xocalı soyqırımı Türkiyə mətbuatında araşdırılmasında əsas məqsəd Xocalı soyqırımından əvvəl və sonra soyqırıma qarşı Türkiyə mətbuatının yanaşma tərzini müəyyən etmək, real faktlara söykənən mətbuat nümunələri əsasında erməni vəhşiliyi və soyqırım faktlarını, soyqırımın törədilməsində əsas səbəbkarları aşkara çıxarmaq, dünya mətbuatında Xocalı soyqırımı faktını analiz

etməkdir. Tədqiqatda elmi-tarixi və müqayisəli-analitik yanaşma metodundan istifadə edilmişdir.

12. **Xocalı soyqırımı Türkiyə mətbuatında (2001-2018) –** tədqiqat işi üçün lazım olan materiallar Türkiyənin İstanbul Böyükşəhər Bələdiyyəsi Atatürk Kitablığından toplama üsulu ilə xronoloji ardıcılıqla seçilmiş, fotoaparatla qəzet və jurnallardan şəkilləri çəkilmiş, sonra materiallar sistemləşdirilmişdir. Tədqiqatda "Xocalı soyqırımına qarşı Türkiyə mətbuatının yanaşma tərzi", "Erməni vəhşiliyi və soyqırım faktları", "Soyqırımın törədilməsində əsas səbəbkarlar", "Dünya mətbuatında Xocalı soyqırımı" adlı yarımfəsillər əsasında yazılan tədqiqatda elmi-tarixi və müqayisəli-analitik yanaşma metodundan istifadə edilmişdir.

13. **Xocalı soyqırımı Azərbaycan publisistikasında əksi (1992-2000) –** tədqiqat "1992-ci il publisistikasında Xocalı soyqırımı", "Məğlubiyyətin səbəbləri", "Soyqırım cinayətləri və şahid faktları", "Xocalı soyqırımı Azərbaycan publisistikasında dəyərləndirilməsi" adlı yarımfəsillər əsasında yazılan tədqiqatda elmi-tarixi və müqayisəli-analitik yanaşma metodundan istifadə edilmişdir. Azərbaycan jurnalistikasının milli və beynəlxalq təcrübə əsasında inkişafının mərhələlərini əsas meyar kimi götürülümüşdür. Tədqiqatda milli haqlarımıza obyektiv yanaşma hakimdir. Faciəyə tarixi baxımından yanaşmada müxtəlif maraqlı faktlar üzə çıxarılmışdır. Tədqiqatda tarixi və analitik yanaşma metodu parallel şəkildə aparılmışdır.

14. **Xocalı soyqırımı Azərbaycan publisistikasında əksi (2001-2018) –** Tədqiqat "Xocalı soyqırımı: faktlar və axtarışlar", "Soyqırım cinayətləri və şahid faktları", "Xocalı soyqırımına beynəlxalq hüquq müstəvisində və dünya ictimaiyyətində erməni absurdlarına cavab" ibarət olan tədqiqatda elmi araşdırmalar zamanı kompleks yanaşma üsulundan istifadə olunmuşdur. Azərbaycan jurnalistikasının milli və beynəlxalq təcrübə əsasında inkişafının mərhələlərini əsas meyar kimi götürülümüşdür. Tədqiqatda milli haqlarımıza obyektiv yanaşma hakimdir. Faciəyə tarixi baxımından yanaşmada müxtəlif maraqlı faktlar üzə çıxarılmışdır. Tədqiqatda tarixi və analitik yanaşma metodu parallel şəkildə aparılmışdır.

15. **Poeziyada Xocalı soyqırımı (1992-2000) –** tədqiqat işi ilk öncə toplama üsulu materiallar cəmlənib sistemləşdirilmişdir. Xocalı soyqırımı poeziya və nəsr nümunələri əsasında tədqiqata cəlb olunmuş, konkret nümunələrlə filoloji təhlil olunmuşdur. Tədqiqatda müqayisəli və analitik elmi yanaşma metodu parallel şəkildə aparılmışdır. Xocalı soyqırımının işıqlandırılması məsələsinə tədqiqatda çağdaşlıq, müasirlik nöqteyi-nəzərindən diqqət yetirməklə də müasirlik prinsipinə əməl edilir.

16. **Poeziyada Xocalı soyqırımı (2001-2018) –** Tədqiqat işi poeziya nüumunələri əsasında tarixi-müqayisəli metod və müasirlik prinsipi əsasında araşdırılmışdır. Nəzəri baza kimi müasir milli və dünya ədəbiyyatşünaslığının elmi təcrübəsinə istinad edilmişdir. Klassik ədəbiyyatşünaslığın təcrübəsi də diqqətdən kənarda qalmamış, əksinə, onun ehtiva etdiyi ənənə və meyarlar, ideya və prinsiplər rəhbər tutulmuşdur.

17. **Nəsr və dramaturgiyada Xocalı soyqırımın əksi –** tədqiqat işi ilk öncə toplama üsulu ilə materiallar cəmlənib sistemləşdirilmişdir. Tədqiqatda problemin həlli ilə əlaqədar nəzəri təhlil və elmi ümumiləşdirmələrə önəm verilmişdir, Müstəqillik dövrü mətbuatında nəsr və dramaturgiyada elmi müqayisəli, analitik yanaşma metodu ilə araşdırmaya cəlb olunmuşdur.

18. **Azərbaycan və Türkiyə mətbuatında soyqırımla bağlı informasiyanın strukturu və məzmunu –** tədqiqat işi ilk öncə toplama üsulu ilə materiallar Türkiyə və Azərbaycan kitabxanalarından toplanmış, cəmlənib sistemləşdirilmişdir. Tədqiqatda problemin həlli ilə əlaqədar nəzəri təhlil və elmi ümumiləşdirmələrə önəm verilmişdir, elmi müqayisəli, tarixi-analitik yanaşma metodu ilə araşdırmaya cəlb olunmuşdur. Araşdırmada əsas məqsəd Azərbaycan və Türkiyə mətbuatında soyqırımla bağlı informasiyanın strukturu və məzmununu təhlil etməkdir.

**19. Azərbaycan və Türkiyə mətbuatının elmi araşdırmalarında 1988-1994-cü illər ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlar: problemlər və analizlər (1988-2000) –** tədqiqat işi ilk öncə toplama üsulu ilə materiallar Türkiyə və Azərbaycan kitabxanalarından toplanmış, cəmlənib sistemləşdirilmişdir. Tədqiqatda problemin həlli ilə əlaqədar nəzəri təhlil və elmi ümumiləşdirmələrə önəm verilmişdir, akademik məqalələr elmi-analitik müqayisəli, tarixi yanaşma metodu ilə araşdırmaya cəlb olunmuşdur.

Araşdırmada əsas məqsəd 1988-2000-ci illərdə azərbaycanlıların Ermənistan SSR-dən zorla deportasiyası, soyqırım faktlarını və həmin dövrdə dilletant yazılara qarşı azərbaycanlı və türkiyəli araşdırmaçıların analizlərini təhlil etməkdir.

**20. Azərbaycan və Türkiyə mətbuatının elmi araşdırmalarında 1988-1994-cü illər ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlar: problemlər və analizlər (2001-2018) –** tədqiqat işi ilk öncə toplama üsulu ilə materiallar Türkiyə və Azərbaycan kitabxanalarından toplanmış, cəmlənib sistemləşdirilmişdir. Tədqiqatda problemin həlli ilə əlaqədar nəzəri təhlil və elmi ümumiləşdirmələrə önəm verilmişdir, akademik məqalələr elmi-analitik müqayisəli, tarixi yanaşma metodu ilə araşdırmaya cəlb olunmuşdur.

Araşdırmada əsas məqsəd Azərbaycan və Türkiyə akademik jurnalları əsasında soyqırım faktlarını kökünü müxtəlif aspektdə təhlil etmək və beynəlxalq hüquq müstəvisində məsələnin həlli istiqamətini analiz etməkdir.

**2** Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli)

**1. 1988-1994-cü illər: dövrün ictimai mənzərəsi və Azərbaycan mətbuatında jurnalist yanaşmaları və janr tipologiyası** – cari I rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu əhatə edir.

**2. 1988-ci ildə azərbaycanlıların İrəvandan deportasiyasının publisistikada əksi** – cari I rüb üçün 100% yerinə yetirilmişdir, mövzu ilə bağlı 1988-2018-ci illər mətbuat nümunələri əsasında qoyulan problem öz əksini tapmışdır, mövzu əhatə olunub.

**3. 20 Yanvar faciəsi və Azərbaycan mətbuatı** – cari I rüb üçün, 100% yerinə yetirilmişdir. Tədqiqat işi geniş həcmli oldğundan iki yarımfəsilə ("20 Yanvar faciəsi Azərbaycan mətbuatında (1990-2000)" və "20 Yanvar faciəsi Azərbaycan mətbuatında (2001-2018)") ayrılır. Tədqiqat işində faciənin törədildiyi tarixdən, 1990-cı ildən etibarən 2018-ci illərə qədər çap olunmuş çoxlu materiallar əsasında mövzu tam əhatə olunmuşdur.

**4. 20 Yanvar faciəsi bədii ədəbiyyatda (1990-2000)** – cari I rüb üçün, 100% yerinə yetirilmişdir, qeyd olunan 10 ilin müxtəlif mətbuat nümunələri əsasında tədqiqata cəlb olunan işdə mövzu tam əhatə olunmuşdur.

**5. "Azərbaycan" jurnalında İrəvan mövzusu** – cari I rüb üçün, 100% yerinə yetirilmişdir, İrəvan mövzusu "Azərbaycan" ədəbi-bədii jurnalında müstəqillik dövründə çap olunan publisistik məqalələr əsasında araşdırmaya cəlb olunaraq mövzunu əhatə etmişdir.

**6. 20 Yanvar faciəsi bədii ədəbiyyatda (2001-2010)** – cari II rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu əhatə edir.

**7. 20 Yanvar faciəsi bədii ədəbiyyatda (2011-2018)** – cari II rüb üçün 100% yerinə yetirilmiş, mövzu ilə bağlı 2011-2018-ci illər mətbuat nümunələri əsasında qoyulan problem öz əksini tapmışdır, mövzu əhatə olunub.

**8. Bədii ədəbiyyatda Qarabağ mövzusunun inikası (1995-2000-ci illər mətbuatında)**– cari II rüb üçün, 100% yerinə yetirilmişdir, milli maraqlar kontekstində problem öz həllini tapmışdır.

**9. Bədii ədəbiyyatda Qarabağ mövzusu (2001-2018-ci illər mətbuatında)** – cari II rüb üçün, 100% yerinə yetirilmişdir, qeyd olunan 2001-2018-ci illər mətbuat nümunələri əsasında tədqiqata cəlb olunan işdə mövzu tam əhatə olunmuşdur.

| | |
|---|---|
| | **10. 1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi** – cari II rüb üçün, 100% yerinə yetirilmişdir. 1988-1994-cü illər Türkiyə mətbuatında çap olunan publisistik məqalələr əsasında Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi araşdırmaya cəlb olunaraq mövzunu əhatə etmişdir.<br>**11. Xocalı soyqırımı Türkiyə mətbuatında (1992-2000)** – cari III rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu əhatə edir.<br>**12. Xocalı soyqırımı Türkiyə mətbuatında (2001-2018)** – cari III rüb üçün 100% yerinə yetirilmiş, mövzu ilə bağlı 2001-2018-ci illər mətbuat nümunələri əsasında qoyulan problem öz əksini tapmışdır, mövzu əhatə olunub.<br>**13. Xocalı soyqırımı Azərbaycan publisistikasında əksi (1992-2000)** – cari III rüb üçün, 100% yerinə yetirilmişdir, milli maraqlar kontekstində problem öz həllini tapmışdır.<br>**14. Xocalı soyqırımı Azərbaycan publisistikasında əksi (2001-2018)** – cari III rüb üçün, 100% yerinə yetirilmişdir, qeyd olunan 2001-2018-ci illər mətbuat nümunələri əsasında tədqiqata cəlb olunan işdə mövzu tam əhatə olunmuşdur.<br>**15. Poeziyada Xocalı soyqırımı (1992-2000)** – cari III rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu əhatə edir.<br>**16. Poeziyada Xocalı soyqırımı (2001-2018)** – cari III rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu tam əhatə edir.<br>**17. Nəsr və dramaturgiyada Xocalı soyqırımın əksi** – cari III rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu tam əhatə edir.<br>**18. Azərbaycan və Türkiyə mətbuatında soyqırımla bağlı informasiyanın strukturu və məzmunu** cari IV rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu tam əhatə edir.<br>**19. Azərbaycan və Türkiyə mətbuatının elmi araşdırmalarında 1988-1994-cü illər ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlar: problemlər və analizlər (1988-2000)** cari IV rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu tam əhatə edir.<br>**20. Azərbaycan və Türkiyə mətbuatının elmi araşdırmalarında 1988-1994-cü illər ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlar: problemlər və analizlər (2001-2018)** cari IV rüb üçün, 100% yerinə yetirilmişdir, qoyulan elmi problem mövzunu tam əhatə edir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | **1. “1988-1994-cü illər: dövrün ictimai mənzərəsi və Azərbaycan mətbuatında jurnalist yanaşmaları və janr tipologiyası”** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:<br>• 1988-ci ildə Kommunist partiyasının monopoliyasında olan Azərbaycan mətbuatı öz sahibinin mütləq diqtəsindən imtina prosesi yaşadı. Yenidənqurma və aşkarlıq – səhv nöqsanların tənqidi, gənclərin inkişaf istiqamətlərin müəyyənləşməsi, keçmiş tarixə baxış, ictimai problemlərin tənqidi və s. mövzular yer alırdı.<br>• 1988-1994-cü illər Azərbaycan mətbuatı böyük sınaq mərhələsi yaşadı. Bu sınaq mərhələsində qərb jurnalistika təcrübəsindən bəhrələnmə özünü göstərdi. Bu dövrdə mətbuat çətin dövrünü yaşasa da, yaranan yeni janr tipologiyasının və jurnalistikada yeni yanaşma sonrakı dövrlərdə inkişaf üçün böyük təkan oldu.<br>• 1988-ci ildə ermənilərin Qarbağ iddiaları, 1990-cı il 20 Yanvar faciəsi, 1992-ci il Xocalı soyqırımı, 1993-cü ildən başlayaraq Qarabağ müharibəsi və soyqırımları mətbuatda sensasiyalı xəbərlərin sayını çoxaltmaqla yanaşı emosional publisistika janrını gücləndirdi.<br>• 1988-1994-cü illərdə Azərbaycan mətbuatında emosional publisistikanın janrları içərisində reportaj və şəxsi müsahibələrə daha çox rast gəlinir. 1990-cı illərdə müstəqil mətbuatda analitik janr daha çox inkişaf etdi. Qarabağ məsələləsi ilə bağlı analitik müsahibələrin, məqalələrin sayı çoxaldı.<br>• 1988-1994-cü illərdə müstəqilliyin qazandırdığı milliözünüdərk türk dünyasına qarşı böyük |

maraq oyatdı. Bu özünü bədii publisistikanın səyahətnamə janrında – Ə.Cəfərzadənin "İrsin Türkiyə və Kipr səfəri", Eldar İbrahimin "Ankaraya gedən yol", Anarın "4 ay Türkiyədə", Rəfiq Zəka Xəndanın "Türk aliminin gözü ilə" tapdı.

- 1988-1994-cü illərdə müstəqil qəzetlərdə head-laynlarda sensasiyalı xəbərlər diqqəti cəlb edirdi. Bu dövrdə xəbər, xəbər-korrespondensiya, reportaj daha çox üstünlük təşkil edirdi. Xəbərin özünün də 1990-cı ildən sonra çeşidli – fakt xəbər, qabaqlayıcı xəbər, qiymətləndirici xəbər və s. növləri formalaşdı.
- Bu dövrdə jurnalistika özünün milli tarixi köklərinə qayıtmaq prosesi və Qərbdə çoxdan formalaşmış mətbuat standartlarını tətbiq etməyi üstün tutdu.
- KİV keçid dövrünün bütün ağrılıqları jurnalistikanın üzərinə düşdü. Çap mətbuatının qeydiyyatının sadələşdirilməsi dəhşətli qəzet bolluğuna səbəb olmuşdur.
- 1993-cü ildə xalqın təkidli tələbi ilə dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan söz və mətbuat azadlığının təmin olunması ilə əlaqədar mövcud olan beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu. Ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman mətbuatın azad fəaliyyət göstərməsi istiqamətində mühüm addım oldu. Bu fərmanla mətbuata nəzarət edən baş idarə və sensura ləğv olundu. Həmçinin həmin sənəddə ölkəmizdə fəaliyyət göstərən aparıcı mətbu orqanların maddi-texniki imkanlarının gücləndirilməsi və s. kimi məsələlər də öz əksini tapmışdır. Buna görə də mürəkkəb hadisələrlə zəngin olan 1988-1994-cü illər mətbuatının hər zaman araşdırılmasının böyük əhəmiyyəti var.

Azərbaycan mətbuatının janr tipologiyası haqqında prof. Cahangir Məmmədli, fil.f.d. Qahirə Hüseynova, fil.f.d. Bayram Hüseynzadə, fil.f.d. Könül Niftəliyeva və başqaları tədqiqatlar aparmışdır. Ancaq Azərbaycan jurnalistikasının nəzəri araşdırmaları sırasında 1988-1994-cü illər mətbuatının janr tipologiyası ilə bağlı fundamental araşdırmaların sayı hələ də azdır. Bu tədqiqat mətbuatın vertikal vəziyyətindən horizontallığa istiqamətlənmə prosesini, ümumilli, respublika, yerli qəzetlərin mövzu dünyası, bütövlükdə bir tipoloji sistem kimi 1988-1994-cü illər mətbuatının xarakteristikasını, qəzetlərin yeni keyfiyyətini, mətbuatın tipoloji transformasiyasının ictimai motivasiyalarını və digər aspektlərin öyrənilməsi, müxtəlif qəzet tiplərinin bir-birindən fərqləndirən məqamların araşdırılması **elmi yenilik** kəsb edir.

**2. "1988-ci ildə azərbaycanlıların İrəvandan deportasiyasının publisistikada əksi"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- Azərbaycan mətbuatının ayrılmaz janrı olan publisistikada 1988-ci ildə azərbaycanlıların öz doğma torpaqlarından deportasiya məsələsinə həm tarixi, həm də bədii düşüncə müstəvisində yanaşma mövcuddur. Bu problem publisistikanın elmi, siyasi və bədii janrlarında öz əksini tapmışdır.
- 1988-ci ildə azərbaycanalıların doğma torpaqlarından deportasiyası, erməni soyqırımları 1990-cı illər mətbuatda kifayət qədər işıqlandırılmamışdır. Çünki 1988-1990-cı illər dövrün ən fəal mətbu orqanları "Kommunist", "Azərbaycan gəncləri", "Bakı" və s. qəzetlərdə azərbaycanlıların deportasiyasına aid məqalələrə rast gəlinmir. 1990-cı illərin əvvələrində deportasiya məsləsinə ən çox həssas yanaşan, professor Teymur Əhmədovun baş redaktorluğu ilə çap olunan Azərbaycan Qaçqınlar Cəmiyyətinin mətbuat orqanı olan "Vətən səsi" qəzeti idi.
- Musa Urudun bədii publisistikanın səyahətnamə janrında yazdığı "Uruda iki səfər" əsərində müəllif azərbaycanlıların deportasiyasının səbəbinin tarixi kökünə nəzər salır. 1988-ci ildə Xankəndində başlanan mitinqlərin səbəbində erməni diasporunun 100 ilə yaxın axtardığı fürsəti kimi aydınlaşdırır. Müəllifin fikrincə 1943-cü ildə Tehran konfransında Molotovanın erməni diasporunun xahişi ilə Stalinin 1948-ci ildə Ermənistan SSR-də yaşayan azərbaycanlıların deportasiyası, Xruşovun, Brejnevin ermənilərə dəstəyi, 1965-ci ildə Türkiyədə həyata keçirilən yalançı soyqırımların İrəvanda Opera teatrında qeyd olunması, 1981-ci ildən başlayaraq azərbaycanlılara qarşı Qafan, Meğri, Gorus, Sisyan, Zəngəzurda hücumlar, təhqirlər, hədə-

qorxular, maaşlarının kəsilməsi və s. təzyiqlər deportasiyanı başlanmasına səbəb olan amillərdir. Müəllif ulu öndər H.Əliyevin dövründə ermənilərin separatçı hərəkətlərinin qarşısının alınmasını xüsusilə əsərdə qeyd etmişdir.

- B. Əhmədov, N.Mustafanın araşdırmalarında erməni yazıçısı Zori Balayanın terror aktlarında iştirak etdiyi bildirilir.
- Bəxtiyar Əhmədovun "Göyçə mahalında yaşayan azərbaycanlıların diskriminasiyası və 1988-1989-cu illər deportasiyası" elmi-publisistik məqaləsində ermənilərin həyata keçirdikləri qətliamlar nəticəsində Göyçə 56 şəhid (45 nəfər Basarkeçər, 11 nəfər Çənbərək rayonu ərazisində) verdi, Göyçənin son 80 min nəfər əzəli sakini didərgin düşdü, əhaliyə şəxsi əmlak qismində 500 milyon, ictimai təsərrüfatların əmlakı qismində 1 milyard dollar həcmində ziyan dəydiyi bildirilir. Mübariz Aslanovun "Erməni ideologiyası: Deportasiyadan soyqırımınadək" məqaləsində 1988-ci ilin 27-29 noyabrında Ermənistan SSR-in Guqark, Spitak və Stepanavan şəhərlərində azərbaycanlılara qarşı törədilən cinayət əməlləri nəticəsində 33 nəfər öldürülmüş, dekabr ayında isə 220 mindən çox azərbaycanlı öz evlərindən zorla çıxarıldığı qeyd olunur.
- Qənbər Bayramov və Eldar İsmayılın "Yalan ayaq tutar yeriməz" Masis, Gorus, Sisyan, Amasyada azərbaycanlıların zorla qətlə yetirilməsi, bu cinayətlərin Ermənistan prokurorluğu tərəfindən inkar edilməsi tənqid olunmuşdur. Eldar İsmayılın "Günahsız qanlar" məqaləsində ermənilərin dəhşətli cinayətləri – boğazına ip salma, yaşlı qadının erməni qonşusu tərəfindən yandırılması soyqırım faktlarıdır.
- Bəzi publisistik məqalələr sayəsində məlum olur ki, ermənilərin Gilan, Mazandaran, Astrabad, Bakıya yerləşdirmə siyasətinin qaynağında I Pyotrun 1723-cü il 10 noyabr fərmanı olduğunu (Həmzə Cəfərov və Abdulla Mustafayevin "Tariximizin qan yaddaşı: soyqırımlar və deportasiya") qeyd olunur.
- Deportasiya mövzusunda yazılmış bədii publisistik məqalələrdə – Məhəmməd Rəşidin "Ulu Göyçəm", Almaz Ülvinin "Ulu Göyçə", Tərlan Göyçəli "Mənim səndə nəyim qaldı" vətən, yurd həsrəti, qaçqınlıq ağrısı təsvir olunmuşdur.

1988-ci ildən başlayaraq ermənilər tərəfindən azərbaycanlıların deportasiyası mövzusu janr etibari ilə 1990-cı ilin əvvəllərində daha çox bədii publisistik janrda öz əksini tapsa da, sonrakı dövrlərdə deportasiyanın, soyqırım tarixinin daha dərin kökləri araşdırılmış, bu mövzuda elmi və siyasi publisistik məqalələrin sayı çoxalmışdır. Bu faktların üzə çıxarılması tədqiqat işinin **elmi yenilik dərəcəsinə** daxildir. Bu publisistik məqalələrin araşdırılması həm jurnalistika, həm də tarixşünaslıq baxımından çox böyük əhəmiyyətlidir.

**3. "20 Yanvar faciəsi və Azərbaycan mətbuatı"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- Qanlı Yanvar faciəsi Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyevin "20 yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanı ilə öz siyasi qiymətini aldı.
- Milli istiqlal hərəkatının davam etdiyi 1990-cı illərin əvvəllərində mətbuatda tez bir zamanda xalqı ayağa qaldıra biləcək operativ janra – publisistika və poeziyaya ehtiyac yaranmışdı. Xalqın etirazları leqal nəşrlərlə yanaşı, qeyri leqal nəşr olunan qəzetlərin çap olunmasına yol açdı. 65 mətbuat mənbəsindən qaynaqlanan tədqiqatda göstərildiyi kimi həmin dövrdə sərt senzura nəzarəti, mətbu orqanlarına "yuxarıdan" edilən təzyiqlər, münaqişələri işıqlandırmaq təcrübəsizliyi və s. kimi amillərin təsiri altında olan, 70 illik "sovet xofu"nun və 30-cu illərin repressiyasını unutmayan KİV-in böyük hissəsi çox şeyi mətbuatda açıq söyləməyə cəsarət etmirdi.
- 1990-cı illərdə mətbuatda milli özünüdərk hissi də güclənmişdir.
- 1990-cı illərin əvvəllərində 20 Yanvar hadisələrinin baş vermə səbəbinin arxasında dayanan əsil məqsədlər, SSRİ Ali Sovetinin baş verən hadisələrə qarşı susqun mövqedə dayanması da publisistlərimizi düşündürürdü. 20 Yanvar faciəsi haqqında ilk məlumat verən "Səhər" qəzetinin 17 fevral 1990-cı il sayında çap olunan Şahmar Əkbərzadənin "Yanan da biz

olduq, yaman da biz olduq", 18 yanvar 1992-ci il sayında Məzahir Süleymanzadənin "Şəhidlər niyə narahatdı?" məqalələrində 20 Yanvar hadisələrinə qiymət verilməməsi, cinayətkarların məsuliyyətə cəlb olunmaması təəssüf hissi doğurur.

- Mətbuatda 20 Yanvarla bağlı analitik təhlillər içərisində səbəbkarları tapmaqla bağlı analizləri də yer almışdır. Həmin dövrdə M.Qorbaçov başda olmaqla rus sovet məmurları 20 Yanvar faciəsinin törədilməsində səbəb azərbaycanlılarda "anti" xarakterin güclü olmağını görürdü.
- 1990-cı illərdə müəllif emosioanl hissi ifadəsinin üstünlük təşkil etdiyi bədii publisistik məqalələr – Hidayət Elvusalın "Bu məzarda şəhid yatır" ("Səhər" qəzeti, 10 fevral 1990), Xalidə Hasilovanın "Güllər ehsana döndü", Sabir Rüstəmxanlının "And yerimiz", Ələkbər Abbasovun "Gün gələcək", Asif Atanın "20 yanvar" ("Azərbaycan" qəzeti, 24 fevral 1990), Zemfira Hüseynovanın "Şəhidlər unutmaq əslini unutmaqdır" ("Səs" qəzeti, 19 yanvar 1999) və s. publisistik əsərlərdə azərbaycanlılara qarşı törədilən Qanlı Yanvar soyqırımı müəlliflərin şahidi olduqları hadisələr fonunda öz əksini tapmışdır. Adı çəkilən publisistik məqalələrdə faktoqrafiyaya meyllilik daha çox müşahidə olunsa da, fəlsəfi düşüncə, mülahizələr, analogiyalara da yer verilmişdir.
- Bəzən emosiyaya qapılan müəlliflər tarixi analitik təhlillərdən uzaqdırlar.
- 20 Yanvar faciəsindən başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyünü və milli haqlarımıza obyektiv yanaşmanın nümayiş olunması ilə bağlı inamını birdəfəlik itirdi.
- 20 Yanvar faciəsi ilə bağlı informasiyanın forma və məzmunu 1990-cı illərdən çox fərqli idi. Belə ki, 1990-cı illərdə 20 Yanvar faciəsi ilə bağlı xəbər, xəbər korrespondensiya, reportaj janrı üstünlük təşkil etsə də, 2001-2018-ci illərdə yazılan məqalələrdə faciənin tarixi kökləri, yaranma səbəblərinin araşdırılmasına meyililik güclü idi, bu səbəbdən siyasi-elmi publisistika janrında yazılmış məqalələrin kəmiyyət sayı çoxaldı.
- 2001-2018-ci illərin mətbuat səhifələrində 20 Yanvarla bağlı mövzularda faciənin kədərli aurası, keçmişə baxış, yaddaşı təzələmək istəyi, faciənin müxtəlif aspektlərin təsviri siyasi-elmi və bədii publisistikada daha çox rast gəlinir.
- 2001-2018-ci illərin mətbuat səhifələrində 20 Yanvar Faciəsinin başvermə səbəbində Sovet imperiyasının Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq, Dağlıq Qarabağ problemini ermənilərin xeyrinə həll etmək məqsədilə Azərbaycan xalqının gözünü qorxutmaq kimi məqsədi  dayanırdı.
- 2001-2018-ci illərin mətbuat səhifələrində 20 Yanvar faciəsinin səbəbkarlarları real faktlarla M.Qorbaçov və o dövrün rəhbər başçıları dayandığı qeyd olunur.
- 2001-2018-ci illərin bədii publisistik məqalələrdə faciəyə qarşı münasibətdə daha çox fəlsəfi-emosional ifadələr, xalqın milli istiqlal uğrunda mütəşəkkilliyi, mübarizəsindən doğan qürur, fəxr hissi, şəhidlik ağrısı, düşmənə nifrət, gələcəyə nikbin baxış hakimdir.
- 2001-2018-ci illər mətbuat səhifələrində 20 Yanvar faciəsinin törədilmə səbəbi, səbəbkarlar haqqında siyasi-elmi publisistik məqalələrdə dəqiqlik, konkretlik üstünlük təşkil etdiyindən ortaq baxışlar daha çoxdur. Bədii-publisistik məqalələrdə subyektivlik mövqeyi öndə olduğundan fərqli baxışlar müşahidə olunur. Əslində isə müxtəlif aspektlərdə hər iki janrın nümunələrini müasir dövrdə informasiya müharibəsinin getdiyi şəraitdə dünya ictimaiyyətinə 20 Yanvar adlı milli faciəmizi tanıdılması baxımından vacib və aktualdır.

1990-2018-ci illərin mətbuat nümunələri əsasında 20 Yanvar faciəsi kompleks halda heç vaxt tədqiqata cəlb olunmamışdır. 1990-2018-ci illərin publisistik məqalələri əsasında jurnalist yanaşmaları, məqalələrin forma, məzmun, strukturunun, mətbuatın hadisələri işıqlandırma dərəcəsi, məqalələrin zəif tərəflərinin ilk dəfə aşkara çıxarılıb analiz edilməsi tədqiqatın **elmi yeniliyi**dir.

20 Yanvar faciəsinin Azərbaycan mətbuat nümunələri əsasında  tədqiqi, XX əsrin mürəkkəb,

təlatümlü, sarsıntılı ictimai- siyasi hadisələrini publisistikada əks etdimə bacarığı, sovet dövrü ideoloji konsepsiyasının mənfi cəhətlərinin tənqidi, müstəqillik dövrü publisistikanın əldə etdiyi nailiyyətlər, bəzi zəif inkişaf meylləri, çatışmayan cəhətlər, ayrı-ayrı məqamlarda büruzə verən suallara, ziddiyyətli fikirlərə aydınlıq gətirən geniş araşdırmalar və əsaslandırılmış müddəalar nəticəsində formalaşan elmi qənaətlər tədqiqatın **elmi yeniliklər** arsenalına daxildir.

**4. "20 Yanvar faciəsi bədii ədəbiyyatda (1990-2000)"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 1990-cı illərin də poeziya böhran yaşamış şeirdə yalnız bir ovqat – milli insan ağrısı, yurd sevgisi, 20 Yanvar faciəsi, torpaq itkisi, şəhidlik acısı natural boyalarla təsvir olunmuşdu.
- 1970-ci illərin senzurasında boğulan, ictimai-siyasi məcrada bəslənən dekadans ovqat nəfəs genişliyi əldə edərək ruhun nəhayətsizlik sevdasını, insanın iç dünyasının çöküşünün ifadə eləmək üçün yeni fəaliyyət sferasına bu dövrdə daxil oldu.
- 1990-cı illərdə qlobal hadisə və proseslərin milli düşüncəyə axını daha çox gücləndi. 1990-cı illərin ortalarına qədər poeziyaya daha çox çılğın, əsəbi notlar üzərində gəzişir, poetik pafos, hislərin çılğın ifadəsi (Qaçay Köçərlinin "Şəhidlər xiyabanı" şeirində, Zəlimxan Yaqub "Səslərin görüşü", Tahir Talıblının "Susmuş hünərə elegiya", çağırış, Fəxr və qürur Vahid Əzizin "Qırğın" ağı-poemasında, Sənan Çırağın "Haqq ədalət Kərəm kimi yalnız indi...", düşmənə nifrət Gəncəli şairə Xəzangülün "Tanrı dərgahında", Məmməd Alimin "Sahibin axtaran qol", ictimai kədər Məmməd Alimin "20 Yanvar küçəsi", Piruz Dilənçinin "Şəhidlər xiyabanı", üsyan intonasiyası, etiraz Zəngilan rayonundan Oqtay Ələkbərovun "Şəhriyar nəfəsi", nikbinlik Xəlil Rza Ulutürkün "Sənin göz yaşların", Ələkbər Şahidin "Şəhidlər", Tofiq Nurəlinin "Bu meydan", təskinlik Vidadi Babanlının "Başsağlığı", pessimist əhval-ruhiyyə Hafiz Əlinin "Bakıda komendat saatı" adlı şeirində, Məhəmməd Aslanbəylinin "Bu il", Fikrət Qocanın "Ağlar", şəhid analarına təskinlik Əlirza Hikmətin "Şəhidlər xiyabanı", baş leytenant Yusif Bağırovun "Şəhidlik", Abbasağa Azərtürkün "Şəhidlərə" şeiri, Qaçay Köçərlinin "Bir ovuc şəhid torpağı", Məzahir Hüseynzadənin "Şəhid anasının dedikləri" daha öndə qərarlaşırdı.
- 1990-cı illərin ortalarından başlayaraq bədii fikirdə, ədəbi prosesdə üst baxış, daha təmkinli şair ədası, loyal yanaşması güclənir.
- 20 Yanvar mövzulu poeziyada faciənin törədənlər də əsas məsələ kimi düşündürülən problem sırasına daxildir.
- 1990-cı illərdən başlayaraq poeziyamızda elə imzalar oldu ki, öz poetik yaşamları ilə "geriyə qayıdış"ın ən yaxşı nümunələrini yaratmaqla bahəm, həm də gələcək şeirin inkişaf trayektoriyasının cızılmasına səbəbkar oldular. Ancaq bununla yanaşı yenə də zəif poetik əsərlər Adil Şirinin "Şəhid gecəyə üç elegiya", Tofiq Abdinin "Yanvar ağıları", Babək Bəhrəmoğlunun "Şəhidlər" şeiri, Aləmzar Əlizadənin "Barıtlı qızın çantası" şeirləri, Sabir Əhmədlinin "Qızıl güllə" hekayəsi mövcud idi.
- Qərənfil klassik poeziyada qəmgin ovqat aşılayan güldür. 20 Yanvar 1990-cı ilə qədər Bakı kəndlərində satış məqsədi ilə yetişdirilən qərənfillər həmin faciədən sonra taleyi dəyişdi, matəm gülü simvoluna çevrildi.
- Milli istiqlal şairi, 20 Yanvar mövzusunda ən sanballı əsərlərin müəllifi Bəxtiyar Vahabzadənin poeziyasında milli özünüdərkin bütün komponentlərini – milli mənlik şüur, milli fikir, milli bəşəri şüur, milli yaddaş, milli ruh, milli istiqlal arzusunu görmək mümkündür.
- 1990-cı illərdə dövrün mürəkkəb şəraitindən irəli gələrək təcrübə üçün gərəkli olan fasilə bədii ədəbiyyata qiymət verən və onu izləyən ədəbi tənqiddə də durğunluq yaratmışdı. Dövrün epoxal gerçəkliklərinə nüfuz, cərəyan edən hadisələrin bütün kəskin və anlaşılmaz, fəcii və dramatik tərəfləri ilə birgə təcəssümü baxımından bu əsərlər ədəbi mühitdə, müasir təkamül prosesinə ciddi mənada bir təsir göstərə bilməmişdi.
- 20 Yanvar mövzulu bədii nümunələri təhlil edərkən onların bir sıra ümumi və xarakterik

xüsusiyyətləri aşkarlanır; baş verənlərə operativ reaksiyanı əks etdirdiyi üçün bəzən poetik səviyyə tələskənliyə qurban verilir. Bu nümunələrdə ifadə olunan əsas fikir, əsas ideya xətti gözlənilməzlik, qəfil zərbə, hazırlıqsız yaxalanma kimi hisslərin ifadəsidir.

20 Yanvar faciəsinin bədii ədəbiyyatda əksi ilə bağlı fil.e.d. Elnarə Akimova, fil.f.d. Mərziyyə Nəcəfova, fil.f.d. Nərgiz Cabbarlı, AMEA-nın müxbir üzvü Tehran Mustafayev və başqalarının tədqiqatları mövcuddur. Daha çox 20 Yanvar faciəsi Qarabağ mövzusunun tərkib hissəsində tədqiq olunmuş, ayrıca mövzu kimi araşdırılmamışdır. İstifadə olunan bədii nümunələr 1990-200-ci illərdə çap olunan "Azərbaycan", "Azərbaycan gəncləri", "Ədəbiyyat və İncəsənət", "Ədəbiyyat", "Yeni Azərbaycan", "Xalq", "Səs" qəzetləri, "Azərbaycan", "Ulduz" jurnalı və başqa mətbuat orqanlarından ilk dəfə toplanaraq kompleks halda araşdırılmışdır. 58 mənbədən qaynaqlanan tədqiqatın **elmi yeniliyi** ilk növbədə 20 Yanvar faciəsinin ayrıca mərhələ kimi bədii ədəbiyyatda araşdırılması, ədəbi-estetik problemlərin aktuallığı, Azərbaycan ədəbiyyatşünaslığının mövzu ilə bağlı nəzəri düşüncələrinin ümumiləşdirilməsi ilə şərtlənir. Bu dönəm elə bir mərhələdir ki, ayrılıqda ədəbi dövr kimi dəyərləndirilən XX əsrin daxilində öz əlahiddəliyi ilə seçilir və xüsusi əhəmiyyət kəsb edir. 1990-cı illər poeziyasının mövzu çoxqatlılığı ilk dəfə tədqiqatda sərgilənir, vətənpərvərlik, yurdsevərlik duyğusunun poetik dərki problemi ətraflı təhlil edilir.

**5. "Azərbaycan" jurnalında İrəvan mövzusu"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- Qərbi Azərbaycanda türk mənşəli toponimlərin uzun illər boyu dəyişdirilib erməniləşdirilməsi türklərin, xüsusən də azərbaycanlıların min illər boyu bu ərazidə yaşamasını sübut edən faktları saxtalaşdırmaq məqsədi daşımışdır. Musa Urudun "Urud" sənədli povesti qədim Qərbi Azərbaycanın yaşayış məskənini özünküləşdirən qüvvələrə qarşı arqumentli faktlarla (müxtəlif mənbələrə əsasən "urud" sözünün qədim türk sözü olması, yerli əhalinin türk kimmer və sakların nəslindən törəməsi, "Sisyan" rayonun adının "sis" sözünün qədim yakutca "dağüstü" kənd mənası verməsi) bağlı etnoqrafik mənbələr, Z.Bünyadov, Ə.Ələkbərovun araşdırmaları, qəbir daşlarının onqonlarla bağlı epiqrafikanın qədim türk mifləri ilə bağlı olması, coğrafi adlar və toponimlər ("Zor-zor" bulağı, "Şor-bulaq", səfalı "İsti-su", Purul bağları, "Cidexur" bağı, "Qazı bağı", "Üç təpə", "Güllü yurdu", "Hacallı", yaşı 300-500 illik kahalar, 150-200 illik qara damlı evlər) özünküləşdirmə siyasətinə qarşı tutarlı cavabdır, gələcək araşdırmalar üçün səmərəlidir.
- Sovet dövründə Rusiyanın himayəsi altında yazıb yaradan mənfur publisistlər XIX əsrdən başlayaraq ardıcıllıqla həyata keçirilən "erməniləşdirmə" siyasətinin dünya ictimaiyyətinə çatdıra bilməmişdilər. Lakin erməni lobbisinin dəstəyi ilə erməni publisistləri hələ Sovet dövründə cənfəşanlıqla Dağlıq Qarabağın, İrəvanın, Naxçıvanın qədimdən özlərinə məxsus olması barədə absurd tarixi faktlarla dünya ictimaiyyətində müxtəlif bəyanatlar vermişdilər.
- Lakin çoxsaylı təşəbbüslərə baxmayaraq hələ də, azərbaycanlı publisistlər qədim Azərbaycan torpaqlarının özümüzə məxsusluğu barədə dünya ictimaiyyətində tam fikir formalaşdıra bilməmişdi. Bunun bir səbəbi də publisistikanın milli təbliğat funksiyasında vaxtilə göstərdiyi zəiflik, 1990-cı illərdə mətbuatın hadisələri işıqlandırmaq təcrübəsizliyi və xalqın milli şüurunda səfərbərliyə yönəltməkdə yaşadığı çətinliklər idi.
- Qədim İrəvan torpaqlarının vaxtilə Azərbaycana məxsus olması haqqında "Azərbaycan" jurnalında çap olunan publisistik əsərlər – Fərman Kərimzadənin "Vedinin yanı dağlar...", Teymur Əhmədovun "Nadanlıq, yaxud qaçqınların taleyi kimin əlindədir?", Musa Urudun "Urud" sənədli povesti, Gülxani Pənahinin "Tariximiz, yaddaşımız" ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərinə, dünya ictimaiyyətinə yaymağa çalışdıqları diletant informasiyalara qarşı tutarlı cavabdır. Buna görə də publisistikada Qərbi Azərbaycan mövzusunun araşdırılması təkcə elmi aktuallığı ilə deyil, siyasi əhəmiyyəti baxımından da son dərəcə vacibdir.

Real fakt və hadisələrə əsaslanan "Azərbaycan" jurnalının publisistika janrında yazılmış əsərlər əsasında İrəvan mövzusu indiyədək tədqiqatlardan kənarda qalmışdır. İrəvan

mövzusunun ilk dəfə “Azərbaycan” jurnalının publisistik materialları əsasında milli maraqlar kontekstində öyrənilməsi, aktual tematik problemlər konkret kateqoriyalar əsasında tədqiqi, həm tarixi, həm də filoloji baxımından araşdırılması **işin elmi yenilikləri** sırasına daxildir.

6. **“20 Yanvar faciəsi bədii ədəbiyyatda (2001-2010)”**adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 2001-2010-cu illər Azərbaycan mətbuatında 20 Yanvar faciəsi mövzusu bədii ədəbiyyatda poeziya və nəsrdə öz əksini tapdı.
- Azərbaycan ədəbiyyatının 2001-2010-cu illər mərhələsində 20 Yanvar faciəsinə münasibətdə mənəvi paklıq, kədər, göz yaşı, şəhid itkisi, üsyankarlıq, qürur, şərəf və s. motivlər yer alsa da, müəlliflərin faciəyə yanaşmada gələcəyə böyük inamı yer tutmuşdur.
- Müharibənin şeirdə, sənətdə əks-sədası hər zaman bəşəri-fəlsəfi poeziya səviyyəsində meydana çıxmır. Müharibənin poeziyada ilk təcəssümü vətəni qorumaq ideyası, xalqı səfərbərliyə almaq düşüncəsi ilə bağlıdır. Bununla belə, o da qeyd edilməlidir ki, 20 Yanvar faciəsinə həsr edilmiş poeziya nümunələri öz səmimiyyəti, duyğuların gerçək ifadəsi və təsir edilən ağrının, fəryadın, acının reallığı ilə seçilirlər.
- 2001-2010-cu illər mətbuatında 20 Yanvar faciəsi mövzusuna həsr olunmuş poeziya və nəsr nümunələrinə rast gəlinsə də, dram əsərlərinə rast gəlinmir.

20 Yanvar faciəsi bədii ədəbiyyatda müxtəlif səpkili tədqiqatlarda öz əksini tapsa da, konkret 2001-2010-cu illər mətbuat orqanlarının nümunələri əsasında ayrıca tədqiqata cəlb olunmamışdır. Ayrıca olaraq 2001-2010-cu illər mətbuatında 20 Yanvar faciəsinin bədii ədəbiyyatda inikasının filoloji aspektdən araşdırılması **elmi yenilik** kəsb edir.

7. **“20 Yanvar faciəsi bədii ədəbiyyatda (2011-2018)”** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 20 Yanvar faciəsi 2011-2018-ci illər mətbuatında dərc olunmuş bədii nümunələr əsasında izləyəndə bir daha şahidi oluruq ki, 1990-cı illərin keçid dövrünün gərginliyini, böhranlarını yaşamış ədəbiyyat bu dövrdə də milli insan ağrısı, torpaq itkisi, şəhidlik acısını natural boyalarla təsvir etməyə çalışmışdı. 20 Yanvar faciəsinin ədəbiyyatda milli özünüdərkin faktı kimi qəbul olunmasının bir səbəbi tarixi yaddaşı oyatmağa yönəlik missiya dayanır. Yaşatdığı faciə qədər, bəzən də xalqın haqsızlıq qarşısında mübarizliyinin tanıtım günü olan 20 Yanvar faciəsi xalqın sarsılmayan vüqarının ən odlu silah qarşısında qaya kimi duruşu idi.
- 2011-2018-ci illərdə 20 Yanvar faciəsinin ədəbiyyatda bir mövzu kimi dərkində onun bədii təcəssümündə yeni yaradıcılıq ritmi müəyyənləşdi, poeziyada vətəndaşlıq qayəsinin bədiilik gücü daha da artdı.
- 20 Yanvar faciəsinin Azərbaycan xalqının mənəvi ruhi dünyasında yaratmış olduğu ictimai kədərə qarşı müəlliflər özünəməxsus baxış bucağından yanaşmışdır.
- Təəssüflər olsun ki, 2011-2018-ci illər mətbuatında tam şəkildə 20 Yanvar faciəsinə həsr olunmuş nəsr və dram nümunələrinə rast gəlinmir. Əlbəttə, nəsr və dramaturgiyada bu mövzunun daha əhatəli və dərin məzmunda işlənməsinə böyük ehtiyac var.

Soyqırım tariximizin bir parçası olan və aktuallığını qoruyub saxlayan, unudulmayan 20 Yanvar faciəsi bədii nümunələr əsasında müasir dövrdə tədqiq olunmasının ədəbiyyatşünaslıq üçün böyük əhəmiyyəti vardır.

1990-cı il 20 Yanvar faciəsi 2011-2018-ci illər mətbuatının bədii numunələrində dərin hüznlü poetik boyalar, ritorik bədii suallarda öz əskini tapmışdır. Bu faktların üzə çıxarılması, təhlil və analiz olunması tədqiqat işinin **elmi yenilik dərəcəsinə** daxildir.

8. **“Bədii ədəbiyyatda Qarabağ mövzusunun inikası (1995-2000-ci illər mətbuatında)”**adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 1988-ci illərin əvvəllərindən respublikada milli azadlıq hərəkatı, keçmişdən dərs götürmək, tarixi yaddaşa diqqət, özünüdərkinin və özünütəsdiqinin əsas amili, ictimai şüurun təşəkkülü poeziyaya yeni ovqat gətirdi.

- Dərin məhrumiyyətlərə, ağır sınaqlara düçar olduğumuz, vətəndə qaçqına, məcburi köçkünə, didərginə döndüyümüz bu çağda poeziyanın ilk vəzifəsi insanlarda haqsızlığa, ədalətsizliyə, təcavüzə, zülmə qarşı etiraz hissini, vətənpərvərlik duyğusunu qaldırmaq, onları müharibə ovqatına kökləmək, vətənin azadlığı, müstəqilliyi, suverenliyi uğrunda mübarizəyə sövq etməkdən ibarət idi. Bəzən nikbinlik, yurda qayıdışa böyük ümidlər (Mehdi Cəlalın "Dönəcəyəm o yurda, "Bölünməz"), Qarabağı satan satqınlara qarşı etiraz (Hüseyn Kürdoğlunun "Qarabağ"), "Bel bağladın səndə belə, Kürdoğlu"), nikbinlik, qürur (Sönməzin "Qarabağ şikəstəsi"), İsa İsmayılzadənin "Əmr versin hücum əmri komandan vətən") şeirlərində rast gəlmək mümkündür.
- Qaçqınlıq, köçkünlük, dərdi, nisgillik, keçmişə baxışda təəssüf hissi, çadır arxetipi, yaxşılığa yamanlıq cavabı (Rafiq Yusifoğlunun "Qaçqın heykəlləri", Famil Mehdinin "Sürünüb gələcək", Zəlimxan Yaqubun "Didərgin sözü", qaçqına qarşı məmurlaın biganəliyi Şərif Ağayarın "Qaçqın ittihamı" şeirlərində hakimdir.
- 1995-2000-ci illər mətbuatında Qarabağ mövzusunda bədii publisistikada böyük fəallıq vardı. Bu məqalələrdə publisist mövqeyi dəqiqdir, baş verən hadisələrin arxasında hansı siyasi məqsədlərin dayanması, günahsız insanların vəhşicəsinə qətlə yetirilməsi barədə informativ xarakterli məlumatların verilməsi fakt və hadisələr təhlil edilir, bədii sözün gücü ilə hissi-emosional təsir gücü formalaşdırır.
- Qarabağ mövzusu ədəbiyyatımızda azadlığımızın qorunması uğrunda mübarizə konteksində dərk edilir, milliözünüdərk hissini qüvvətləndirdi.
- Qarabağ mövzusu ədəbiyyatımıza gətirilməsi ilə keçmiş tarixə müraciət, Sovet dövründə qadağan olunmuş əsərlərə diqqətə artırdı
- 1995-2000-ci illər mətbuatında Erməni işğalçıların təcavüzkar siyasətinin daha dərin tarixi köklərinə nəzər yetirildi
- Tarixi həqiqətləri bərpa etmək və yalan, böhtanları rədd etmək istəyi yazıçılarda gücləndi
- Poeziyada əks olunan Qarabağ hadisələri bədii düşüncədə vətənpərvərlik pafosunu və vətəndaşlıq mövqeyini gücləndirdi
- Qarabağ mövzusu ədəbiyyatımızda sənətkarlıq baxımından yeni keyfiyyət dəyişikliyi yaratdı, bədii publisistikada müharibə psixologizmini gətirdi, tarixizmə meyililik gücləndi
- Dramaturgiya sahəsində Qarabağ müharibəsi və soyqırımlarla bağlı əsərlərə rast gəlinmir, daha çox keçmiş tarixə müraciət öndədir.

Bütün bunlarla yanaşı Qarabağ mövzusunun bədii ədəbiyyatda araşdırılması həqiqətlərimizin dünya ictimaiyyətinə tanıdılması baxımından böyük əhəmiyyəti daşıyır.

Qarabağ mövzusunun aparıcı mövqe qazanması tarixin ibrətamiz dərslərindən doğru nəticə çıxarmaq məsələsini ortaya qoymuşdur. Müstəqillik dövrü Qarabağ mövzusunu ədəbiyyatda fil.e.d. Elçin Mehrəliyev, fil.e.d. Elnarə Akimova, fil.e.d. Mərziyyə Nəcəfova, fil.f.d. Nərgiz Cabbarlı, professor Asif Rüstəmli və başqalarının müxtəlif tədqiqatları vardır. Ancaq 1995-2000-ci illər mətbuatında Qarabağ mövzusu kompleks halda araşdırılmamışdır. Fil.e.d. Elnarə Akimova, fil.e.d. Mərziyyə Nəcəfova ancaq poeziya sahəsində araşdırma aparmışdır. Fil.e.d. Elçin Mehrəliyev Qarabağ mövzusuna nəzəri aspektdən yanaşsa da, 1995-2000-ci illər nəsrinə yer verməmiş, daha çox bədii publisistika janrının araşdırmalarına önəm vermişdir. Çağdaş Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunun işlənmə arealı, funksionallığı, poetik quruluşunun əsasları, tipoloji müəyyənliyi məsələlərinin araşdırılması tədqiqatın **elmi yeniliklər** arsenalına daxildir.

**9. "Bədii ədəbiyyatda Qarabağ mövzusu (2001-2018-ci illər mətbuatında)"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 1990-cı illərdə Qarabağ mövzusu ədəbiyyatımızda məhdud və şəxsi duyğuların ifadəsinə daha çox üstünlük verilirdi. 2001-2018-ci illər Azərbaycan mətbuatında Qarabağ mövzusu

ədəbiyyatımızda əsərlərdə dərd, kədər motivlərinin ən xırda detallara qədər geniş, ətraflı təsviri üstünlük təşkil edir.

- 2001-2018-ci illər mətbuatında dramaturgiya nəsr və poeziyaya nisbətən yenə zəif inkişaf etmişdir.
- Erməni işğalçıların təcavüzkar siyasətinin daha dərin tarixi köklərinə nəzər yetirilməklə yanaşı, üsyankarlıq motivi daha da güclənmişdir.
- Tarixi həqiqətləri bərpa etmək və yalan, böhtanları rədd etmək istəyi yazıçılarda gücləndi.
- Poeziyada əks olunan Qarabağ hadisələri bədii düşüncədə vətəndaşlıq mövqeyini gücləndirdi, eyni zamanda qaçqınlıq problemi məsələsini daha dərin şəkildə öz əksini tapdı.
- Qarabağ müharibəsinin poeziyamızda inikasını araşdırmaqla, öyrənməklə ədəbiyyatşünaslığımız bilavasitə müasir dövrdə baş verən ictimai hadisələrə müdaxilə etmək imkanı qazanır ki, bu da ədəbi-nəzəri fikrin inkişafı üçün olduqca əhəmiyyətlidir.
- Qarabağ mövzusu ədəbiyyatımızda müharibə psixologizminin elementlərini daha da çoxaltdı.
- Qarabağ mövzusu poeziyada iki əhval-ruhiyyə istiqamətini özündə etiva edir: a) Əlacsızlığı, bədbinliyi rəmzləndirən ağı, qüssə, kədər, dərd, sızıltı və s. duyğuların bədii təsviri. b) qüdrəti, qələbə əzmini, qəhrəmanlığı simvollaşdıran milli ruhun dirçəlişinə, sakral dəyərlərin təbliğinə çağırış, vətənpərvərliyin, mübarizə ovqatının yüksəldilməsi, düşmənə qəzəb, nifrət hissinin aşılanması.
- Dramaturgiya sahəsində soyqırımlarla bağlı əsərlərdə daha çox keçmiş tarixə müraciət yenə əvvəlki illərdə olduğu kimi öndədir.

2001-2018-ci illər mətbuatında Qarabağ mövzusunu ədəbiyyatda fil.e.d. Elçin Mehrəliyev, fil.e.d. Elnarə Akimova, fil.e.d. Mərziyyə Nəcəfova, fil.f.d. Nərgiz Cabbarlı, professor Asif Rüstəmli və başqalarının müxtəlif tədqiqatları vardır. Ancaq 2001-2018-ci illər mətbuatında Qarabağ mövzusu kompleks halda araşdırılmamışdır. Araşdırmanın aparılmasında başlıca məqsədi çağdaş Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunun işlənmə arealı, funksionallığı, poetik quruluşunun əsasları, tipoloji müəyyənliyi məsələlərinin araşdırılmasıdır.

36 mənbədən qaynaqlanan tədqiqatın **elmi yeniliyi** ilk növbədə Qarabağ mövzusunu ayrıca mərhələ kimi bədii ədəbiyyatda araşdırılması, ədəbi-estetik problemlərin aktuallığı, Azərbaycan ədəbiyyatşünaslığının mövzu ilə bağlı nəzəri düşüncələrinin ümumiləşdirilməsi ilə şərtlənir. Bu dönəm elə bir mərhələdir ki, öz xüsusiyyəti və yeni inkişaf meyli ilə seçilir və xüsusi əhəmiyyət kəsb edir. 2001-2018-ci illər ədəbiyyatının mövzu çoxqatlılığı ilk dəfə tədqiqatda sərgilənir, vətənpərvərlik, yurdsevərlik duyğusunun poetik və estetik dərki problemi ətraflı təhlil edilir.

**10. “1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi”** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 1988-1994-cü illərdə müstəqil Türkiyə mətbuatı Azərbaycanda baş verən siyasi hadisələri daha açıq şəkildə demək imkanı vardı. Bu baxımdan soyqırım həqiqətlərini 1988-1994-cü illər Türkiyə mətbuatında araşdırmaq olduqca vacib və əhəmiyyətlidir.
- Türkiyə mətbuatında 1988-1994-cü illər hadisələrinə münasibətdə ilk öncə diqqət Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sonuncu Baş Katibi, SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun apardığı siyasətin məkirli və gizlin tərəflərini aşkar etmək analitik şərhlərdə qarşıya məqsəd kimi qoyulmuşdu.
- 1990-ci ilin 20 Yanvar faciəsi ilə bağlı Türkiyə mətbuatında hadisələrə münasibət Azərbaycan mətbuatının sovet xofundan çıxmayan mətbuat nümunələri ilə müqayisədə daha demokratik, real faktlara yanaşmada daha obyektiv şəkildədir. Ancaq 20 Yanvar faciəsinin səbəbkarı M.Qorbaçov və erməni ekstremistləri olduğu açıqca bildirilir.
- 1992-1993-cü illər Qarabağ müharibəsini Türkiyə mətbuatı işıqlandırmaqda demokratik

prizmadan yanaşmış, ermənilərin işğalçılıq siyasətinin mənbəyində Qərb dövlətlərinin və Rusiyanın dəstəyini açıq şəkildə qeyd edir. Bəzi siyasi-publisistik məqalələrdə ermənilərin işğalçılıq siyasətinin müəyyənləşdirən şərhlərdə Qərbin dəstəyi öz əksini tapmışdır.

- Eyni zamanda Qarabağ müharibəsində məğlub olma səbəbi də Azərbaycanda o zamankı rəhbərlərin spekulyativ fəaliyyəti, idaretmə sisteminin və ordunun zəifliyi kimi amillər də qeyd olunur.
- Ümumilli lider Heydər Əliyevin demokratik siyasəti, hakimiyyətə gəldikdən 1994-cü ilin mayında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail oldu. Ulu öndərin apardığı uğurlu islahatlar Türkiyə mətbuat nümunələrində öz əksini tapmışdır.
- 70 ilə yaxın dünya medyası ilə əlaqəsi çox zəif olan Azərbaycan mətbuatı “xalqlar dostluğu” tendensiyasını irəli sürən zaman erməni əsilli jurnalistlər azərbaycanlılara qarşı dünya medyasında təbliğat kompaniyasını aparır, xarici dövlətlərdən uydurma yalanlarına dəstək qüvvəsi toplamışdı.
- Ermənilərin dünya mətbuatında 1988-1990-cı illərdə diletant, yalan, böhtan dolu çıxışlar edən zaman Türkiyə mətbuatı obyektivlik prizmasından çıxış edərək məlumatları yalan fakt olduğunu sübuta yetirmişdir.
- 1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzində dost və qardaş mövqedən yanaşmışdır.

Ümumiyyətlə, 1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi Müstəqillik dövrü Azərbaycan mətbuatında səslənən fikirlərlə üst-üstə düşür. Bu tədqiqat elmi jurnalistika və mətbuat araşdırmaçıları, eyni zamanda soyqırım tarixçiləri üçün gərəkli mənbələrdir və müasir dövrdə də aktuallığını qoruyub saxlamaqdadır.

Müstəqil Türkiyə mətbuatında – “Cumhuriyet”, “Türkiye”, “Hürriyyet”, “Milliyet”, “Tercüman”, “Halkın sesi”, “Meydan” qəzetləri, “Azerbaycan türk kültür dergisi”1988-1990-cı illər erməni soyqırımlarını araşdırdıqda Azərbaycan həqiqətlərini dəstəkləməklə yanaşı, real faktları olduğu kimi işıqlandırmışdı.

Real fakt və hadisələrə əsaslanan, 100-dən çox mətbuat nümunələrindən qaynaqlanan “1988-1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi” adlı tədqiqat işi indiyədək ayrıca kompleks halda tədqiqata cəlb olunmamışdır. Azərbaycanda baş verən siyasi hadisələrin milli maraqlar kontekstində öyrənilməsi, aktual tematik problemlər konkret kateqoriyalar əsasında tədqiqi, həm tarixi, həm də filoloji baxımından araşdırılması **işin elmi yenilikləri** sırasına daxildir.

**11. “Xocalı soyqırımı Türkiyə mətbuatında (1992-2000)”** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- “Cumhuriyet”, “Hürriyet”, “Milliyet”, “Türkiye”, “Tercüman”, “Meydan” qəzetləri, “Azerbaycan Türk kültür dergisi”ni araşdırdıqda məlum olur ki, dünya mediyasında ən çox soyqırım realıqlarını əks etdirən və Azərbaycanda baş verən prosesləri yaxından izləyərək həlli yolları axtaran Türkiyə mətbuatıdır. Xocalı soyqırımının canlı şahidləri İrfan Sapmaz və Rehber Beşiroğlunun müəllifi olduğu xəbərlər hadisələrin daxili xarakterini və mahiyyətini ətraflı şəkildə oxucuya çatdıra bilmişdir.
- Həmin dövrdə “Azerbaycan Türk kültür dergisi”dən başqa Azərbaycanın mövqeyini ən çox müdafiə edən “Milliyet” və “Hürriyet” qəzetləri idi.
- Türkiyə mətbuatındakı Xocalı soyqırımında azərbaycanlılara qarşı törədilən soyqırım faktları publisistikada müharibə psixologizm elementlərini artırdı.
- Əslində Xocalı soyqırımı informasiyasının mətbuatda tirajlanmasındakı əngəllərin iki səbəbi vardı.Birincisi, ermənilərə xarici dövlətlərdən göstərilən erməni lobbisinin dəstəyi, digər tərəfdən ermənilər güclü təbliğatı nəticəsində Qarabağda baş verənlərin “xristian-müsəlman qarşıdurması” kimi qələmə verərək, azərbaycanlıları “cinayətkar” millət kimi qələmə verilməsidir.

Dr. Ahmet Ali Arslan bu haqda yazırdı: “Xocalı qətliamı ilə bağlı xəbərlər dünyaya Moskvada tamamilə ermənilərin əlində və nəzarətində olan TASS agentliyi tərəfindən yayılırdı. Amerika mətbuatı və yayın orqanları TASS-ı qaynaq göstərərək hadisələri ictimaiyyətə bildirdi”.

8 sentyabr 2015-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən “Azərbaycan Parisin ürəyində” adlı layihə çərçivəsində Parisdə “Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti” mövzusunda konfransda Azərbaycan respublikasının vitse-prezidenti Mehriban Əliyeva qeyd etmişdir ki, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni hüquqa malikdirlər, heç vaxt ölkəmizdə dini, milli zəmində heç bir qarşıdurma baş verməyib. Birinci xanım Mehriban Əliyeva diqqətə çatdırdı ki, ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasında dövlət-din münasibətləri mühüm rol oynayır. Azərbaycanda yaradılan şərait onu deməyə əsas verir ki, multikulturalizmin alternativi yoxdur”.

Etnik təmizləmə, terror və soyqırımı siyasətinin davamı, tariximizin ən qanlı səhifələrindən olan Xocalı soyqırımını araşdırmaq Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq baxımından böyük əhəmiyyət kəsb edir.

“Xocalı soyqırımı Türkiyə mətbuatında [1992-2000]” adlı tədqiqat soyqırım tarixinin öyrənilməsi baxımından vacibdir. Bu tədqiqatdan tarixçilər, mətbuat tarixi, elmi jurnalistika ilə bağlı araşdırma aparan tədqiqatçılar faydalana bilərlər.

Xocalı soyqırımı Türkiyə mətbuatı nümunələri əsasında dosent Bəşir Mustafayev, dosent Meşkure Yılmaz, Elşad Eyvazlı tərəfindən yazılmış müxtəlif səpkili məqalələr əsasında araşdırılmışdı, ancaq kompleks halda bu mövzu 1992-2000-ci illər “Cumhuriyet”, “Hürriyet”, “Milliyet”, “Türkiye”, “Tercüman”, “Meydan” qəzetləri, “Azerbaycan Türk kültür dergisi” əsasında ayrıca araşdırılmamışdı. Yeni araşdırmada tarixi-müqayisəli və analitik təhlil metodundan istifadə edilmişdir. Xocalı soyqırımının Türkiyə mətbuatında əksi ilə bağlı müxtəlif səpkili məqalələr olsa da, ancaq kompleks halda 1992-2000-ci illər Türkiyə mətbuatı əsasında ayrıca araşdırılmamışdı. Bu da tədqiqatın **elmi yenilik** dərəcəsini bir daha göstərir.

**12. “Xocalı soyqırımı Türkiyə mətbuatında (2001-2018)”** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- “Cumhuriyet”, “Hürriyet”, “Milliyet”, “Türkiye”, “Sabah” və digər region qəzetləri, “Azerbaycan Türk kültür dergisi”ni araşdırdıqda məlum olur ki, dünya mediyasında ən çox soyqırım realıqlarını əks etdirən və Azərbaycanda baş verən prosesləri yaxından izləyərək həlli yolları axtaran Türkiyə mətbuatıdır.
- Türkiyə medyası Heydər Əliyev Fondunun vitse Prezidenti Leyla Əliyevanın “Xocalıya ədalət” kompaniyasını təqdir edir, Bu kompaniyanın Türkiyə kordinatoru Nabat Qaraxanova qeyd etmişdir ki: “Tehcir qanunu ilə Türkiyəyə qarşı beynəlxalq aspektdə təbliğat fəaliyyətləri irəli sürən Erməni lobbisi qarşısında güclü bir arqument olaraq Türkiyənin də yararınadır”.
- Qərb ölkələri, xüsusilə də Fransa və Hollandiya müasir dövrdə Xocalı soyqırımına qarşı ikili standartdan yanaşır. Belə ki, ermənilərin azərbaycanlılara qarşı soyqırımını görüb, ermənilərin soyqırıma məruz qaldığını qəbul edirlər. Millət vəkili Qənirə Paşayeva da öz çıxışlarında bunu xüsusilə qeyd edir, eyni zamanda Qərb Türkiyənin terorla mübarizəsində, Afrin döyüşlərində onun yanında olmadığını vurğulayır.

Xocalı soyqırımı Türkiyə mətbuatı nümunələri əsasında dosent Bəşir Mustafayev, dosent Meşkure Yılmaz, Elşad Eyvazlı tərəfindən yazılmış müxtəlif səpkili məqalələr əsasında araşdırılmışdı, ancaq kompleks halda bu mövzu 2001-2018-ci illər “Cumhurriyet”, “Hürriyet”, “Milliyet”, “Türkiye”, “Sabah” və digər region qəzetləri, “Azerbaycan Türk kültür dergisi” əsasında ayrıca araşdırılmamışdı. Yeni araşdırmada tarixi-müqayisəli və analitik təhlil metodundan istifadə edilmişdir. Bu da tədqiqatın **elmi yenilik** dərəcəsini bir daha göstərir.

**13. “Xocalı soyqırımı Azərbaycan publisistikasında əksi (1992-2000)”** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 1992-ci ildə Azərbaycan mətbuatının konkretlik və birbaşa ünvanlılıq funksiyasını tam formada yerinə yetirməməsi senzura qorxusu ilə bağlı idi. Bu proses ümumilli lider Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı “Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” fərmana qədər davam etmişdir.
- Xocalı faciəsi XVIII əsrdən başlayaraq erməniləri Qafqazda yerləşdirmək, onları himayədarlığa götürmək, Türkmənçay müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqları ərazisində “Erməni vilayəti” yaratmaq, bolşevik hakimiyyəti dövründə torpaqlarımızı hissə-hissə qoparıb Ermənistana birləşdirmək siyasətindən ruhlanıb “Böyük Ermənistan” yaratmaq iddiasına düşən mənfur ekstremistlərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin növbəti və ən qanlı təzahürüdür.
- 1992-ci ildə dövrün səriştəsiz vəzifəli şəxslərinin spekulyativ fəaliyyəti, hərbi qüvvənin zəifliyi ermənilər tərəfindən mühasirəyə alınmış Xocalıya heç bir yardım əlini uzatmağa imkan vermədi.
- 1992-ci illər yerli mətbuatda “Xocalı” faciəsi ilə bağlı fakt xəbər üstünlük təşkil etsə də, sonrakı illərdə hadisə ilə bağlı analitik şərh önə keçdi.
- Xocalıdakı soyqırım cinayətlərini gözləri ilə görmüş şahidlərin söyləndilərindəki Soyqırım faktları publisistikada müharibə psixologizm elementıerini dərinləşdirməklə yanaşı, erməni soyqırım faktlarını bir daha ortaya qoyur.
- Ermənilərin Xocalıdakı vəhşiliyini əks etdirən çoxsaylı mətbuat nümunələri də göstərir ki, Ermənistan Respublikası silahlı qüvvələrinin, onların tabeliyində olan muzdlu əsgərlərin, terrorçu dəstələrin törətdikləri vəhşilik məhz soyqırımı aktıdır və bunu o qanlı günlərin şahidləri də açıq-aydın etiraf edirlər.
- Xocalı qaçqınlarının cəmiyyətə sosial-psixoloji adaptasiyası ilə bağlı ayrıca geniş araşdırmaların aparılmasına ehtiyac var.

Xocalı soyqırımı ilə bağlı Akif Aşırlı, Nazim Mustafa, Habil Həmidov, Sabir Şahtaxtı, Vasif Səmədov, Etibar Məmmədli və başqalarının tədqiqatları olsa da, 1992-2000-ci illər mətbuatında Xocalı soyqırımı ayrıca araşdırmaya cəlb olunmamışdır. Bu da tədqiqatın **elmi yeniliyini** göstərir.

**14. “Xocalı soyqırımı Azərbaycan publisistikasında əksi (2001-2018)”** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 2001-2018-ci illər mətbuatını araşdırdıqda, belə nəticəyə gəlinir ki, Xocalı soyqırımın törədilməsinə səbəb olan amillər 1992-ci ildə idaretmənin, milli ordunun zəifliyi, özbaşınalıq idi.
- Xocalı qaçqınlarının həyat şəraiti və mənəvi psixoloji vəziyyəti ilə bağlı mətbuatda məqalələr daha azdır.
- Xarici və yerli jurnalistlərin məqalələrində, faciəni yaşamış şahidlərin müsahibələrindəki erməni vəhşilikləri ilə bağlı faktlar Xocalı soyqırımın dünyanın ən dəhşətli faciələrindən birini olduğunu sübuta yetirir
- 1992-ci ilin dünya mətbuatında Xocalı faciəsi soyqırım fatları ilə işıqlandırılsa da, bəzi dövlətlər onu soyqırım ki tanımır. Beynəlxalq hüquq normaları Xocalı soyqırımını soyqırım adlandırılmasına tamamilə imkan yaradırdı.
- 2001-2018-ci illər Azərbaycan mətbuatında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət!” “Justice for Khojaly” beynəlxalq kampaniyası yüksək təqdir edilmişdir.

Real tarixi faktlardan çıxış edərək erməni absurd fikirlərinə qarşı mübarizə müasir dövrümüzdə xüsusi aktuallıq kəsb edir. Xocalı soyqırımını real faktlara əsaslanan 2001-2018-ci illər mətbuat nümunələri əsasında publisistikada araşdırılması bu gün olduqca çox vacib və aktualdır. Xocalı soyqırımı ilə bağlı Akif Aşırlı, Nazim Mustafa, Habil Həmidov, Sabir Şahtaxtı, Vasif Səmədov, Etibar Məmmədli və başqalarının tədqiqatları olsa da, 2001-2018-ci illər

mətbuatında Xocalı soyqırımı ayrıca araşdırmaya cəlb olunmamışdır. Bu da tədqiqatın **elmi yeniliyini** göstərir.

**15. "Poeziyada Xocalı soyqırımı (1992-2000)"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- Erməni terrorçularının və onların havadarlarının Azərbaycana qarşı təcavüzü, işğalçılıq siyasəti, köməksiz insanlara qarşı törədilən qanlı qırğınlar, soyqırımı, insanlığa ləkə gətirən qəddarlıq, barbarlıq aksiyaları şairlərimizin şeirlərində əsasən obyektiv tərənnüm olunmuş, real bədii əksini tapmışdır. 1990-cı illərin əvvəllərində poeziyamızda mövzu palitrası genişlənməkdə, sənətkarlıq xüsusiyyətləri çətin sınaq dövrünü yaşamaqda idi. Bu keyfiyyət öz növbəsində poeziyada bənzərsiz lirik obrazlara, bədii ifadə və təsvir vasitələrinə yol açır, zənginliyə səbəb olurdu.
- 1990-cı illər şeirində vətənpərvərliyin poetik dərki əsasən lirik qəhrəmanın – şairin öz timsalında təhlil edilmişdir. Qarabağ mövzusunda işləyən hər bir şairimiz ədəbi dilə fərqli aspektdən yanaşmış, hərə öz ilhamına, istedadına uyğun olaraq dilin daxili potensialından, yaradıcılıq qüdrətindən yetərincə faydalanmışdır.
- Soyqırım tariximizin ayrılmaz hissəsi olan Xocalı soyqırımı mövzusunda bədii nümunələrin yazılması müasir dövrdə aktuallıq kəsb edir və xalqımızın başına gətirilən həqiqətlərin üzə çıxarmaq üçün araşdırılması böyük əhəmiyyət daşıyır.

1970-ci illərin dekadans ədəbi cərəyanı yeni fəaliyyət sferasına bu dövrdə daxil oldu. Ötən əsrin əvvəllərindən başlayaraq meydana çıxmış modernist cərəyanlara əsrin sonunda yenidən qayıdıldı, simvolizm, sürrealizm, ekzistensializm, postmodernizm və s. tətbiq edildi. Xocalı soyqırımını poeziyada fil.e.d. Elçin Mehrəliyev, fil.e.d. Elnarə Akimova, fil.f.d. Nərgiz Cabbarlı, fil.e.d. Mərziyyə Nəcəfova və başqalarının müxtəlif səpkili tədqiqatları olsa da, bu mövzu ədəbiyyatşünaslıqda ayrıca olaraq 1992-2000-ci illər mətbuatı əsasında tədqiqata cəlb olunmamışdır. Tədqiqatlar daha çox Xocalı soyqırımı Qrabağ mövzusunun tərkibində araşdırılmışdı. Bu da tədqiqatın **elmi yeniliyini** göstərir.

**16. "Poeziyada Xocalı soyqırımı (2001-2018)"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 2001-2018-ci illər mətbuatında çap olunan poeziya nümunələri üzərində çalışan zaman bir daha belə nəticəə gəlmək olur ki, Qarabağ mövzusunda işləyən hər bir şairimiz ədəbi dilə fərqli aspektdən yanaşmış, hərə öz ilhamına, istedadına uyğun olaraq dilin daxili potensialından, yaradıcılıq qüdrətindən yetərincə faydalanmışdır.
- Xocalı soyqırımı səbəbkarlarını tapmaq 1990-cı illər poeziyasının əsas motivi idi.
- Konstruktiv şeir, dekonstruktiv şeir, vizual şeirlər, şeirin qafiyə ilə deyil, epik formada yazılması önə çıxdı.
- Poeziyada milli mənlik hissi, xalqa, doğma torpağa bağlılıq, vətənpərvərlik duyğuları əsas leytmotivi təşkil edir. Bu dövrdə şairin poeziyası xalqımızın vətəndaşlıq hissini gücləndirir, milli və bəşərilik duyğusunu ləyaqətlə təmsil edirdi.
- Şəhid obrazının poetik mətnlərdə təcəssümü iki yolla reallaşdırılıb: ümumiləşdirilmiş obraz və ya konkret olaraq hər hansı şəhidin, qəhrəmanın nümunəsində. Söz sənətkarlarımız Azərbaycan dilinin bütün bədii imkanlarından bacarıqla istifadə etməyə çalışmışlar.
- Xocalı soyqırımı dünya tarixində bənzəri olmayan, erməni təfəkkürünün, erməni əxlaqının bariz təzahürü, nadir nümunəsi, vəhşiliyin və barbarlığın orijinal variantıdır. Xocalı soyqırımınının poeziyada araşdırılması tarixi həqiqətlərimizin öyrənilməsi baxımından böyük aktuallıq kəsb edir.

Xocalı soyqırımını poeziyada fil.e.d. Elnarə Akimova, fil.f.d. Nərgiz Cabbarlı, fil.e.d. Mərziyyə Nəcəfova və başqalarının müxtəlif səpkili tədqiqatları olsa da, bu mövzu ədəbiyyatşünaslıqda ayrıca olaraq 2001-2018-ci illər mətbuatı əsasında kompleks halda araşdırılmamışdır. Bu da

tədqiqatın **elmi yeniliyini** bir daha göstərir.

**17. "Nəsr və dramaturgiyada Xocalı soyqırımın əksi"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- Xocalı soyqırımın nəsr və dramaturgiyada inikasında əsas məqsəd epik mahiyyəti, dolğunluğu hifz etmək, bu yolla dövrün dramatizmini bütün təzadları ilə bədii nəsrin predmetinə çevirmək istəyidir.
- Belə əsərlərdə konflikt hadisələrin mahiyyətindən yaranır və o mahiyyət etibarilə təcavüz edənlə təcavüzdən qorunmağa çalışanlar arasında gedən barışmaz mübarizədən ibarətdir. Bu konfliktin özünəxas səciyyələri ilə təcəssüm etdirilməsi, bədii xarakterlər vasitəsilə gerçəkləşdirilməsi ədəbiyyatımızın yeni motivlər və ideyalarla zənginləşməsinə gətirib çıxarır.
- Əslində Xocalı soyqırımı mövzusunda olan bədii əsərlər dünya ədəbiyyatı faktı olması həqiqətə uyğundur.
- Drammaturgiyada keçmiş tarixi yaddaşa müraciət daha öndədir. Tarixə müraciət edilməklə əslində gələcəyə üz tutulur, müasir gerçəklikdən doğan ideya-məzmun mündəricələri onları bir araya gətirərək aktual edir.
- Nasirlərimiz və dramaturqlarımız sosial-mənəvi mühit, mənəvi-əxlaqi mənzərə, vətəndaş və cəmiyyət, insan və zaman, köhnə düşüncə tərzi və yeni təfəkkürün formalaşması və s. bu kimi milli və bəşəri problemləri önə çəkir, yalnız insanı deyil, cəmiyyətdə gedən ictimai-mənəvi proseslərin bu insanda necə əks olunmasını da əks etdirməyə çalışırlar.
- Dramaturgiyamız yeni qəhrəman axtarışları vasitəsilə hadisələrə nüfuz etmək və
- bədii idealı çatdırmaq imkanı əldə edir.

Xocalı soyqırımınının nəsr və dramaturgiyada əksi ilə bağlı fil.e.d. Elçin Mehrəliyev, fil.f.d. Nərgiz Cabbarlı, fil.e.d. Vaqif Yusifli və başqalarının müxtəlif səpkili tədqiqatları olsa da, bu mövzu ədəbiyyatşünaslıqda ayrıca olaraq mətbuat nümunələri əsasında tədqiqata cəlb olunmamışdır. Bu da tədqiqatın **elmi yeniliyini** bir daha göstərir.

18. **"Azərbaycan və Türkiyə mətbuatında soyqırımla bağlı informasiyanın strukturu və məzmunu"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

- 70 il Sovet qorxusu yaşamış Azərbaycan mətbuatında soyqırımla bağlı informasiyanın məzmunu və strukturundakı dəyişiklik müxtəlif illərdə çeşidli olmuşdur.
- Müstəqil Türkiyə mətbuatının söz demək imkanı daha yaxşı olduğundan soyqırımla bağlı informasiyalarda müstəqil fikir əks olunmuşdur.
- Türkiyə mətbuatından fərqli olaraq Azərbaycan mətbuatındakı informasiyaları strukturunda ən çox nəzərə çarpan hedlaynlar bəzən rast gəlinmir, bəzən də xəbərin qısa xronikasını əks etdirə bilmir.
- Azərbaycan mətbuatında soyqırımla bağlı tarixi araşdırmalar qəzetlərdə yer alsa da, Türkiyə mətbuatı daha çox yeni informasiyaya meyl etdiyində bu cür məqalələrə rastlanmır. Türkiyə mətbuatındakı soyqırımla bağlı informasiyanın strukturu və məzmunu daha çox jurnalistin özünü daha mütəşəkkil ifadə etmək maraqlarına xidmət etmişdir.

1988-2018-ci illər mətbuatdakı informasiyaların struktur və məzmunu ilə bağlı professor Cahangir Məmmədli, Dr. Akif Aşırlı, Dos. Vüqar Zivəroğlu və başqalarının müxtəlif səpkili araşdırmaları olsa da, Azərbaycan və Türkiyə mətbuatında soyqırımla bağlı informasiyanın strukturu və məzmunu ilə bağlı ayrıca tədqiqat yoxdur. Bu da araşdırmanın elmi yeniliyini bir daha isbat edir. Qloballaşan dünyanın müasir informasiya məkanında erməni dilletant yanaşmalara cavab böyük aktuallıq kəsb etdiyindən, Azərbaycan maraqlarını və həqiqətlərini əks etdirən soyqırım mövzulu xəbərlərin mətbuat nümunələri əsasında araşdırlması xüsusi aktuallıq kəsb edir. Araşdırmada əsas məqsəd Azərbaycan və Türkiyə mətbuatında soyqırımla bağlı informasiyanın strukturu və məzmununu təhlil etməkdir.

**19. "Azərbaycan və Türkiyə mətbuatının elmi araşdırmalarında 1988-1994-cü illər ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlar: problemlər və analizlər (1988-2000)"** adlı tədqiqat işinin **elmi nəticələri** aşağıdakılardır:

